**DOI: https://doi.org/10.59849/2957-3882.2024.1.131**
**UOT: 327**

# AZƏRBAYCAN-İSRAİL MÜNASİBƏTLƏRİNİN MÖVCUD VƏZİYYƏTİ

**Xuraman ABBASOVA***

***Açar sözlər**: İsrail, Azərbaycan, İran, münasibətlər, Fələstin*

## XÜLASƏ

Azərbaycan-İsrail münasibətlərinin tarixi bir neçə on il bundan əvvələ edib çıxmaqla yanaşı, illər ərzində baş verən siyasi hadisələrə əsasən, yeni çalar qazanmış və başqa mərhələlərə keçid etmişdir. Azərbaycanda yaşayan yəhudi icmasının bu münasibətlərin inkişafında önəmli rolu vardır. Amerikada olduqca aktiv rola malik olan İsrailin Azərbaycan lobbisinə yaxından kömək etməsi bu münasibətlərin əsas inkişaf aspektlərindəndir. Məqalədə Azərbaycan-İsrail münasibətlərinin 2023-cü il ərzində əsas inkişaf xətləri təhlil olunur. Qeyd edək ki, bu münasibətlərin 2023-cü il üçün bazisini ilin əvvəlində Azərbaycanın İrandakı səfirliyinə olan hücum, yaz aylarında Təl-Əvivdə Azərbaycan səfirliyinin açılması və ölkə rəsmilərinin qarşılıqlı səfərləri, o cümlədən payız fəslində başlanan İsrail – Fələstin müharibəsi təşkil etmişdir. Hadisələrin gedişatı həm hər iki ölkənin siyasi ekspertlərini, həm də xalqları narahat etməkdə və maraq içində saxlamaqdadır. Azərbaycan-İsrail münasibətləri qarşılıqlı şəkildə inkişaf etsə və daim müxtəlif qrafik üzrə dəyişsə də, region ölkələrində baş verən hadisələr hər iki tərəfin daxili işlərinə və qarşılıqlı əlaqələrinə birbaşa təsir göstərdiyindən ekspertlərin əsas diqqəti Yaxın və Orta Şərqə, Qafqaza, baş verən siyasi dəyişikliklərə yönəlir.

### Giriş

Azərbaycanla İsrailin yaxın münasibətlərinin bünövrəsi 1992-ci ildən etibarən bərqərar olmuşdur. İsrail illərdir öz xarici siyasətinə sadiq qalaraq strateji və iqtisadi vəziyyətini daha da yaxşılaşdırmaq üçün azsaylı ölkələrlə uzunmüddətli və daha sağlam qarşılıqlı əlaqə qurmaq tərəfdarıdır. Türkiyə, Misir, Bəhreyn, BƏƏ, İordaniya, Albaniya, Körfəz ölkələri, Mərakeş, Kosova, Sudan və bir sıra keçmiş Sovet ölkələrini öz xarici əlaqələr portfoliosuna daxil edən İsrailin Azərbaycanla münasibətləri xüsusi mahiyyət daşıyır. Azərbaycanda yaşayan yəhudi icmasının bu münasibətlərin inkişafında önəmli rolu vardır. Bir sıra mütəxəssislər bu siyasətin əsas maddəsini Azərbaycanın İranla həmsərhəd olmasının təşkil etdiyini bildirirlər. İsrailin Azərbaycana silah satan əsas tərəflərdən biri olması, Amerikada olduqca aktiv rola malik olan İsrailin Azərbaycan lobbisinə yaxından kömək etməsi bu münasibətlərin əsas inkişaf aspektlərindəndir.

### İkinci Qarabağ müharibəsində Azərbaycan-İsrail münasibətlərinin əsas inkişaf istiqamətləri

90-cı illərdən etibarən münaqişənin həlli üçün beynəlxalq sülh cəhdləri uzandıqca, Azərbaycan öz hərbi potensialının artırılmasına üstünlük vermişdir, eyni proses daim silah təchizatını möhkəmləndirən Ermənistanda da müşahidə olunurdu. 2020-ci ildə Ermənistanın hərbi xərcləri ümumi daxili məhsulunun 4,9 faizini, Azərbaycanın hərbi xərcləri isə ümumi daxili məhsulunun 5,4 faizini təşkil etməsi bu prosesin göstəricisidir. Hər bir ölkənin bu sahədə milli payı 2020-ci ildə dünya hərbi xərclərinin qlobal ÜDM-in 2,4 faizini təşkil edən orta göstəricidən xeyli yüksək idi. Bununla belə,

*AMEA akad.Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu.
E-mail: haciyeva.xuraman@gmail.com

hərbi xərclərin səviyyəsi iki ölkə arasında əhəmiyyətli dərəcədə fərqlənib: 2020-ci ildə Ermənistan 634 milyon ABŞ dolları, Azərbaycan isə 2.238 milyon dollar xərcləyib. Hər iki ölkənin silah sənayesi inkişaf etmədiyindən əsas təchizatçılar silah satışını həyata keçirən digər ölkələr idilər. Ermənistanın əsas silah təchizatçıları Rusiya və İran olsa da, Stolkholm Beynəlxalq Sülh Tədqiqatları İnstitutunun araşdırmalarına əsasən, 2016-2020-cu illər arasında Azərbaycanın silah idxalının 69 faizi İsrailin payına düşmüşdür (www.sipri.org). Bununla yanaşı, Azərbaycanın silah alışının həcmi 2011-2020-ci illər ərzində Ermənistandan 8,2 dəfə çox olmuşdur. Rusiya Ermənistanla yanaşı Azərbaycanı da silahla təmin edirdi. 2011-2020-ci illər arasındakı qrafikə nəzər salsaq, Türkiyə və Belarusiya da İsrail və Rusiya ilə yanaşı Azərbaycanı silahla təchiz edən ölkələrdən olmuş və 4 ölkə ilə daimi əməkdaşlıq edilmişdir.

2020-ci ilin sentyabr ayında II Qarabağ müharibəsinin başlanması ilə Azərbaycanın hərbi sənayesində və nəticə etibarilə də, digər ölkələrlə münasibətində yeni mərhələ başlanır.

2011-2020-ci illərdə Azərbaycanın əsas silah idxal etdiyi ölkələrin 27 faizlik payı İsrailə düşürdü. Silah təminatı prosesində 2016-2020-ci illərdə Azərbaycanın əsas tərəfdaşının İsrail olması ilə ümumi həcmin 69 faizi İsrailə aid edilmişdir. Təmin edilən silahların növləri barədə kifayət qədər məlumat ictimai şəkildə bəlli olsa da, transfer olunan silahların həqiqi sayı barədə çox az şey bilinir.

İsrailin təmin etdiyi əsas silahlar sırasına gəzən sursatlar, pilotsuz uçan aparatlar daxildir. Bu silahlardan həm ikinci Qarabağ müharibəsi ərəfəsində, həm də daha əvvəlində sərhədlərlə baş verən qarşıdurmalarda istifadə olunmuşdur.

Nümunə kimi deyə bilərik ki, İsrail Harop adlı gəzən sursatını Azərbaycana ilk dəfə təxminən 2015-ci ildə çatdırmışdır, lakin bu sursatların rəsmi istifadəsi 2016-cı ildə sərhədboyu baş verən qarşıdurmalarda olmuş, daha geniş istifadə prosesi isə 2020-ci ildə müşahidə olunmuşdur.

Əlavə olaraq, Azərbaycanda müəyyən sayda İsrailin istehsal etdiyi Hermes-900 kəşfiyyat PUA-ları da vardır. Bir sıra mütəxəssislərin fikrincə, İsrail istehsalı olan özü hərəkət edən sursatlar və PUA-lar 2020-ci ildə Azərbaycanın Ermənistan üzərində hərbi üstünlüyünün əsas komponentlərindən biri olmuşdur.

2018-ci ildə İsrail Azərbaycanı yerdən idarə olunan ballistik raketlərlə (LORA) təchiz etmişdir. Bu raketin trayektoriyası 430 km idi. Bu hadisə Rusiyanın Ermənistanı bir dəstə bənzər tipdə raketlə - İskəndərlə təmin etməsindən sonra baş vermişdir. Azərbaycanın LORA raketi ilə Ermənistanda körpünü dağıtmaq cəhdi ilə bağlı azı bir hadisə qeydə alınmışdır.

2016-cı ildə İsrail Azərbaycanı Barak-8 hava və raketdən müdafiə sistemi ilə təchiz etmişdi. Təsdiq edilməmiş məlumatlara əsasən, bu sistem 2020-ci ildə Ermənistanın İskəndər raketinə zərbə vura bilmişdi.

SIPRI belə qiymətləndirir ki, Azərbaycana olan silah ixracı 2016-2020-ci illərdə İsrailin ümumi silah ixracının 17 faizini təşkil edib. Bu da Azərbaycanın İsrailin silah sənayesi üçün getdikcə artan əhəmiyyətini göstərməkdədir.

2016-cı ildə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Azərbaycanın İsraildən əldə etdiyi silah təchizatının həcminin 5 milyard dollar olduğunu bildirmişdir. İqtisadi gəlirin İsrailin Azərbaycana davam edən silah tədarükü üçün əsas təkan olub-olmaması barədə bir sıra spekulyativ fərziyyələr mövcuddur, çünki bəzi mütəxəssislər İsrailin Azərbaycan neftindən asılılığının və ya İrana qarşı ümumi təhdid anlayışı kimi motivlərin iki ölkə arasında münasibətlərdə, o cümlədən arasıkəsilməz silah tədarükü prosesində əsas hərəkətverici qüvvə olduğunu hesab edirlər.

Qeyd edək ki, qanuni şəkildə həyata keçirilməli olan silah alış-verişi prosesi şəxsi münasibətlər zəminində müəyyən məlumatların fərqli şəkildə əks olunması ilə yekunlaşır. Məsələn, verilən məlumatlara əsasən, Belarus və Türkiyə Azərbaycana bütün əsas silah ixracı barədə lazımi orqanlara məlumat verib və silah növlərinin təfərrüatları barədə məlumatları bu hesabatlara daxil ediblər. Belə görünür ki, Rusiya UNROCA və ATƏT-ə əsas silahların Ermənistan və Azərbaycana tədarükünün əksəriyyəti barədə hesabat verib, lakin hesabatlarda yalnız əsas silahların ümumi kateqoriyaları

haqqında məlumatlar var. Bəzi mütəxəssislər belə hesab edirlər ki, xüsusi silah növləri haqqında daha çox məlumat verilsəydi, o zaman silahların alıcı dövlətin hərbi qabiliyyətinə necə təsir göstərə biləcəyinə dair daha yaxşı qiymətləndirmə aparıla bilərdi. Bundan başqa, Rusiya rəsmi məlumatlarda 2016-cı ildə Ermənistana "İsgəndər" ballistik raketlərinin tədarükündən imtina edib, lakin faktlar əksini göstərir.

ATƏT-in iştirakçısı olmayan İsrail, ümumiyyətlə, əsas silahların ixracı ilə bağlı UNROCA-ya hesabat verir, lakin o, rəsmi sənədlərdə Azərbaycana əsas silahların bütün ixracından imtina edib. Halbuki, Azərbaycan Qarabağ müharibəsi ərəfəsində onunla hərbi əməkdaşlıq edən ölkələrin adlarını rəsmi şəkildə açıqlamış və qarşılıqlı hərbi əməkdaşlıq hər zaman qanun çərçivəsində baş vermişdir. Hətta "2023-cü ilin may ayında İsrail dövlət başçısı İsak Herzoq Bakıya rəsmi ziyarət etmiş və bu görüş çərçivəsində ölkə prezidenti İlham Əliyev Azərbaycanla İsrail arasında təhlükəsizlik əməkdaşlığından danışarkən, Azərbaycanın uzun illər ərzində müasir İsrail silahlarını əldə etmək şansı olduğunu və bunun bizim müdafiə potensialımızı daha da müasirləşdirmək, dövlətçiliyimizi, milli maraqlarımızı və dəyərlərimizi, o cümlədən ərazi bütövlüyümüzü qorumaq prosesində əhəmiyyətli rola malik olduğunu bilərək İsrail dövlətinə və xalqına təşəkkürünü bildirmişdir" (www.timesofisrael.com). Qeyd edək ki, iki ölkə arasında hər bir əməkdaşlıq Ermənistan tərəfindən aqressiya ilə qarşılanmışdır. Ermənistan tərəfi bu məsələ ilə bağlı, "İsrail silahlarının erməni xalqına yönəlməsi bizə pis təsir etmişdir, olmazdımı ki, İsrail Azərbaycana göstərdiyi toleransı eyni ölçüdə Ermənistana da göstərəydi?" kimi fikirlər səsləndirmişdir (www.timesofisrael.com). Bu iddialara cavab olaraq İsrailin Azərbaycandakı keçmiş səfiri Arkadi Milman deyib: "Azərbaycanın müdafiəsinə dəstək mövqeyimizə heç bir şübhə yoxdur" (www.timesofisrael.com).

**İkinci Qarabağ müharibəsindən sonrakı mərhələdə Azərbaycan-İsrail münasibətləri**

2023-cü il ərzində İsrail-Azərbaycan qarşılıqlı görüşləri davam etmişdir. 2023-cü ilin may ayında İsrail prezidenti İsak Herzoq Bakıya səfər etmiş və qarşılıqlı əlaqələrin genişləndirilməsi istiqamətində Azərbaycan prezidenti İlham Əliyevlə danışıqlar aparmışlar. Bu görüş hər iki prezidentin həyat yoldaşlarının da iştirakı ilə olduqca səmimi mühitdə həyata keçmişdir. İ.Herzoq həm də yerli yəhudi birliyi ilə İsrailin 75-ci ildönümünə həsr olunmuş mərasimdə iştirak etmişdir. Bu görüşlər çərçivəsində hər iki ölkənin səhiyyə nazirləri görüşmüş, həkimlərin təlimi və təhlükəsizlik tədbirləri kimi məsələlərdən danışmışlar (www.timesofisrael.com).

İki ölkə arasında əsas inkişaf göstəricilərindən biri 2013-cü ilin mart ayında Təl-Əvivdə Azərbaycan səfirliyinin açılması olmuşdur. Bu məsələ İran tərəfindən birmənalı qarşılanmamış və özlərinin Azərbaycana qarşı İsrailə məlumat ötürməsi və İrana qarşı ona yardım etməsi yönündə ittihamlarında bu məsələni əsas maddə kimi irəli sürmüşdülər.

2023-cü ilin aprel ayında daha bir görüş həyata keçirilmiş və İsrail Xarici İşlər naziri Əli Kohen Əliyevlə danışıqlar aparmışdır. Bu görüşlərdə strateji regional çağırış və addımlar, xüsusilə regional təhlükəsizlik və terrorizm əleyhinə mübarizə barədə danışmışdılar (www.timesofisrael.com).

**İranda Azərbaycan səfirliyinə hücum fonunda Azərbaycan-İsrail münasibətləri**

2023-cü ildə Azərbaycan üçün ən dolaşıq və problem yaradan hadisələrdən biri 27 yanvar 2023-cü il tarixində yerli vaxt ilə səhər saat 08:00 radələrində Azərbaycan Respublikasının İran İslam Respublikasının paytaxtı Tehran şəhərində yerləşən səfirliyinə silahlı hücum olmuşdur. Hücum edən şəxs, İran vətəndaşı Yasin Hüseynzadə "Kalaşnikov" markalı avtomat silahla səfirliyin mühafizə postunu yarmış, səfirlik əməkdaşlarına atəş açmışdır. Hücum nəticəsində səfirliyin mühafizə xidmətinin rəhbəri Orxan Əsgərov həlak olmuşdur. Hücumun qarşısı Azərbaycan Respublikasının İrandakı səfirliyinin əməkdaşları, xüsusilə Vasif Tağıyev tərəfindən alınmış və daha çox tələfatın olmamasına səbəb olmuşdur. Hadisəyə ölkə rəhbərliyi səviyyəsində reaksiya bildirilmiş, 30 yanvar tarixində Azərbaycan səfirliyinin əməkdaşları evakuasiya edilmiş və səfirlik fəaliyyətini dayandırmışdır.

İran tərəfi Yasin Hüseynzadəni dərhal həbs etsə də, hadisə fonunda İran media orqanlarında bir çox spekulyativ yazılara, ailə-məişət zəminində daha əvvəl terrorçu ilə həyat yoldaşı arasında yaranmış problemlərin qabardılması və təhrif olunmasına, o cümlədən İsrail amilinin bu hadisəyə cəlb edilmə cəhdlərinə yer verilmişdir (www.bbc.com).

İranın "RadioFarda" xəbər agentliyi dərc etdiyi məqalədə yazırdı: "Baxmayaraq ki, Azərbaycan Respublikası həmişə iddia edirdi ki, digər ölkələrin daxili işlərinə müdaxilə etmirlər, təhrikedici işlərlə məşğul deyillər, lakin Rabitə və İnformasiya texnologiyaları nazirliyi öz açıqlamasında məhz həmin siyasəti izləməyi tövsiyə edir: Azərbaycan cəmiyyətini dövlətdən ayrıma cəhdləri; Rusiyanın Azərbaycanda baş verən təhriklərə qarşı həssas davranaraq bu ölkəni Rusiyanın cənubunda NATO-nun yerləşdiyi əraziyə, o cümlədən ikinci Ukraynaya çevirmək cəhdləri; İlham Əliyevin İrandan fərqli apardığı siyasətin sionist müşavirlərinin təsiri nəticəsində olduğu iddiaları" (www.radiofarda.com).

Avropa məsələləri üzrə baş tədqiqatçı Əhməd Kazımi irdiplomacy.ir saytında yer alan "Azərbaycan səfirliyinə hücum macərasında Bakının Tehran əleyhinə düşməncəsinə rəftarı barədə bir neçə sual" adlı müsahibəsində daha əvvəl də müxtəlif ölkələrdə Azərbaycan səfirliklərinə olan hücumlar barədə Azərbaycanın bənzər kəskin münasibət bildirməməsini İrana qarşı olan sui-zənn hesab etdiyini bildirmişdir: "AR parlamentinin sədr müavini, NATO parlamentində Azərbaycan nümayəndələr heyətinin başçısı Ziyafət Əsgərov elə ilk saatdan bildirdi ki, səfirliyə silahlı hücum dövlət terrorizmidir. Onun dövlət terrorizminin nə demək olduğundan xəbəri var, yoxsa Azərbaycan Respublikasının rəsmi qurumları hadisə ilə bağlı qeyri-müəyyən ittihamları aydınlaşdırmaq əvəzinə, iranofobiyanı təbliğ etmək və sionist rejimin İrana qarşı çoxsaylı məqsədlərinə xidmət etmək üçün istifadə etməyə çalışırlar? Bu mövzuda digər bir məsələ sionist rejimin mövqeyinin Azərbaycan media aparatının və Bakının siyasi mövqeyi ilə oxşarlıq təşkil etməsidir. Bu məqamları nəzərə alaraq, deyə bilərik ki, əgər Bakının Yasin Hüseynzadəni dəlilik dərəcəsinə çatdırılmasında rolu olmadığını qəbul etsək belə, amma aydındır ki, Azərbaycan Respublikası bu mövzuya hüquqi müstəvidən yanaşmaq əvəzinə, İran əleyhinə qara propaqanda aparmış, sionist rejimlə ortaq ssenari izləmişdir" (irdiplomacy.ir).

Nəticə etibarilə, səfirliyə hücumun əsas səbəblərini araşdırmazdan əvvəl İran tərəfi İsraili məsələyə daxil edərək ölkələr üçbucağı yaratmışdır. Azərbaycanın siyasi addımlarını yalnız İsrailə dəstək və xidmət kontekstində dəyərləndirməyə çalışan İran bununla hər iki ölkə ilə münasibətləri gərginləşdirir və bu iddialar mütəmadi olaraq İrana məxsus media orqanlarında yer almaqdadır. Fikrimizcə, siyasi şərhçi Fərhad Məmmədovun bu mövzu ilə bağlı açıqlaması hazırda Azərbaycanın mövqeyini əks etdirə bilər: "İsrail-İran müharibəsi olsa, bu, Azərbaycan üçün çətin olacaqdır. Demirəm ki, Azərbaycan öz ərazisindən və ya hava məkanından istifadə edilməsinə icazə verəcəkdir, amma gərginliyin dərəcəsi yüksələcəkdir" (www.bbc.com).

## İsrail-Fələstin müharibələrinin yeni mərhələsində Azərbaycan-İsrail münasibətləri

2023-cü ilin tarixi hadisələrindən biri İsrail-Fələstin münaqişəsinin alovlanması olmuşdur. 7 oktyabr tarixində HƏMAS-ın İsrail ərazisinə edilən geniş miqyaslı və 1400 israillinin ölümü ilə nəticələnən hücumu ilə başlanan müharibədə İsrail əks-hücuma keçərək silsilə raket atışları ilə ümumilikdə hazırda sayı 13 min göstərilən fələstinlinin ölümünə səbəb olmuşdur. "Oktyabrın 7-də HƏMAS-ın həyata keçirdiyi hücum zamanı İsrail Xarici İşlər Nazirliyinin yaydığı məlumata əsasən, İsraillə yanaşı, başqa ölkələrin də 148 vətəndaşı öldürülmüşdür. Qurumun açıqlamasına görə, öldürülənlərdən üçü Azərbaycan vətəndaşıdır, bir Azərbaycan vətəndaşı isə itkin düşüb. Azərbaycan Xarici İşlər Nazirliyindən BBC Azərbaycancaya bildiriblər ki, HƏMAS-ın hücumu zamanı həlak olanlar arasında 7 azərbaycanlı olub. Qurum bildirir ki, onlardan üçü İsrail vətəndaşı, ikisi həm Azərbaycan, həm İsrail vətəndaşı olub. Azərbaycan XİN onu da əlavə edib ki, HƏMAS-ın oktyabrın 7-dəki hücumu zamanı girov və ya itkin düşmüş azərbaycanlıların olması barədə onlarda hər hansı bir məlumat yoxdur" (www.bbc.com).

"Atlantik ölkələri, Argentina, Braziliya, Hindistan kimi ölkələr HƏMAS terror təşkilatını qınamış və onun həyata keçirdiyini terror kimi dəyərləndirmişdir. Bir sıra ərəb və müsəlman ölkələri isə İsrailin işğal cəhdlərini və Fələstinin müstəqilliyinin qəbul edilməməsini hücumların əsas səbəbi olaraq görmüşdür. Bir çox ölkələr çaxnaşmaların sona yetməsini tələb etmişdilər. Azərbaycan məsələ ilə bağlı öz mövqeyini nümayiş etdirmiş və bildirmişdir ki, Azərbaycan İsrail-Fələstin münaqişəsinin iki dövlət prinsipi əsasında həllini dəstəkləyir" - APA xəbər verir ki, bunu xarici işlər naziri Ceyhun Bayramov Birgə Ərəb İslam Fövqəladə Sammitində çıxışında deyib. Azərbaycanın vəziyyətinin təcili deeskalasiyası, habelə hərbi əməliyyatların təxirəsalınmaz şəkildə dayandırılması istiqamətində çağırışlara qoşulduğu, həmçinin bütün Yaxın Şərq bölgəsi üçün həssas olan mövcud vəziyyəti daha da ağırlaşdıra biləcək davranışlardan çəkinilməsinin vacibliyi vurğulanıb. Bu istiqamətdə, beynəlxalq ictimaiyyətin bütün səylərinin səfərbər edilməsinin əhəmiyyət daşıdığı diqqətə çatdırılıb. Nazir Ceyhun Bayramov İsrail-Fələstin münaqişəsinin beynəlxalq hüquq normaları və Birləşmiş Millətlər Təşkilatının (BMT) müvafiq qətnamələrinə uyğun olaraq, iki dövlət prinsipi əsasında həllini dəstəklədiyini bir daha diqqətə çatdırıb" (apa.az). Hazırda qızğın şəkildə davam edən İsrail-Fələstin müharibəsinin yekunu barədə təsəvvürlər çox qeyri-dəqiq olmaqla yanaşı, Azərbaycan tərəfi bu məsələni daim nəzarətdə saxlayır, çünki bu hadisənin region ölkələrinə olduğu kimi, Azərbaycana da təsiri mütləq şəkildə olacaqdır. Bu məsələ ilə Azərbaycan daim doğru mövqe tutmağa çalışır və mümkün yardımı əsirgəmir. "Oktyabrın 18-də Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində İslam Əməkdaşlıq Təşkilatının İcraiyyə Komitəsinin nazirlər səviyyəsində keçirilən növbədənkənar iclasında münaqişənin nəticələrinin aradan qaldırılması istiqamətində Azərbaycanın səylərindən bəhs edən Ceyhun Bayramov, ölkəsinin fələstinli qaçqınlara dəstək məqsədilə BMT-nin Yaxın Şərq Agentliyinə 1,6 milyon dollar maliyyə töhfəsi verdiyini diqqətə çatdırıb" (www.amerikaninsesi.org).

Siyasi şərhçi Fərhad Məmmədov bildirir ki, Azərbaycan həm İsraillə, həm də Fələstinlə bu münasibətləri qoruyur. Münaqişəyə başqa ölkələrin qoşulması Azərbaycan üçün təhlükə kəsb etməsə də, gərginliyi artıra bilər" (www.bbc.com).

**Nəticə**

Azərbaycan-İsrail münasibətləri qarşılıqlı şəkildə inkişaf etsə və daim müxtəlif qrafik üzrə dəyişsə də, region ölkələrində baş verən hadisələr hər iki tərəfin daxili işlərinə və qarşılıqlı əlaqələrinə birbaşa təsir göstərdiyindən ekspertlərin əsas diqqəti Yaxın və Orta Şərqə, Qafqaza, baş verən siyasi dəyişikliklərə yönəlir. Məhz bu baxımdan hadisələrin izlənilməsi və daim tədqiq olunması xüsusi əhəmiyyət daşıyır.

## ƏDƏBİYYAT

http://irdiplomacy.ir/fa/news/2017365/%D8%B3%D9%88%D8%A7%D9%84%D8%A7%D8%AA%DB%8C-%DA%86%D9%86%D8%AF-%D8%A7%D8%B2-%D8%A8%D8%A7%DA%A9%D9%88-%D8%A8%D8%A7%D8%A8%D8%AA-%D8%B1%D9%81%D8%AA%D8%A7%D8%B1%D9%87%D8%A7%DB%8C-%D8%AE%D8%B5%D9%85%D8%A7%D9%86%D9%87-%D8%A7%D8%B4-%D8%B9%D9%84%DB%8C%D9%87-%D8%AA%D9%87%D8%B1%D8%A7%D9%86-%D8%AF%D8%B1-%D9%85%D8%A7%D8%AC%D8%B1%D8%A7%DB%8C-%D8%AD%D9%85%D9%84%D9%87-%D9%85%D8%B3%D9%84%D8%AD%D8%A7%D9%86%D9%87-%D8%A8%D9%87-%D8%B3%D9%81%D8%A7%D8%B1%D8%AA-%D8%A2%D8%B0%D8%B1%D8%A8%D8%A7%DB%8C%D8%AC%D8%A7%D9%86

https://apa.az/foreign-policy/nazir-azerbaycan-israil-felestin-munaqisesinin-iki-dovlet-prinsipi-esasinda-hellini-destekleyir-794962

https://www.amerikaninsesi.org/a/7315931.html

https://www.bbc.com/azeri/articles/cpvl44nnx29o
https://www.bbc.com/azeri/articles/czd0jw0ddlgo
https://www.bbc.com/news/world-europe-64424745
https://www.radiofarda.com/a/iran-intelligence-service-doument-attack-azerbaijan-embassy-tehran/32435752.html
https://www.sipri.org/commentary/topical-backgrounder/2021/arms-transfers-conflict-zones-case-nagorno-karabakh
https://www.timesofisrael.com/fm-cohen-meets-azerbaijani-president-to-talk-joint-security-challenges/
https://www.timesofisrael.com/herzog-to-meet-azerbaijans-president-aliyev-in-baku-as-ties-expand/).
https://www.timesofisrael.com/in-baku-azerbaijans-president-thanks-herzog-for-israeli-arms-supply/
https://www.timesofisrael.com/israeli-weapons-quietly-helped-azerbaijan-retake-nagorno-karabakh-sources-data/

## РЕЗЮМЕ

***Хураман АББАСОВА***

***Современная ситуация в азербайджано-израильских отношениях***

***Ключевые слова:*** *Израиль, Азербайджан, Иран, отношения, Палестина*

Начиная свой исток из прошлых десятилетий, история израильско-азербайджанских взаимоотношений на фоне политических событий, происходящих на протяжении нескольких лет, приобрела новые краски и перешла на другие уровни. В статье исследуются основные ветви развития азербайджанско-израильских взаимоотношений в течении 2023 года. Еврейская община, проживающая в Азербайджане, играет важную роль в развитии этих отношений. Израиль, играющий очень активную роль в Америке, тесно помогает азербайджанскому лобби, что является одним из главных аспектов развития этих отношений. Следует заметить, что базис этих взаимоотношений составляет нападение на посольство Азербайджана в Иране в начале этого года, открытие посольства Азербайджана в Тель-Авиве весной 2023 года, двусторонние визиты официальных лиц, а также израильско-палестинская война, начавшаяся осенью этого года. Ход событий беспокоит и держит в поле зрения как политических экспертов, так и народов обеих стран. Израиль уже много лет привержен своей внешней политике и стремится к установлению долгосрочных и более здоровых взаимодействий с небольшим числом стран с целью дальнейшего улучшения своего стратегического и экономического положения.

## ABSTRACT

***Khuraman ABBASOVA***

***Current State of Azerbaijani-Israeli Relations***

***Keywords:*** *Israel, Azerbaijan, Iran, relations, Palestine*

The history of Azerbaijani-Israeli relations goes back several decades, but it has acquired new shades and transitioned to other stages based on the political events that have taken place over the years. The Jewish community living in Azerbaijan has an important role in the development of these relations. Israel, which has a very active role in America, closely helps the Azerbaijani lobby, which

is one of the main aspects of the development of these relations. In the article, the main branches of the development of Azerbaijani-Israeli relations during 2023 are studied. It should be noted that the basis of these relations is the attack on the embassy of Azerbaijan in Iran at the beginning of this year, the opening of the embassy of Azerbaijan in Tel Aviv in the spring of 2023, bilateral visits of officials, as well as the Israeli-Palestinian war that began in the fall of this year. The course of events worries and keeps in view both political experts and the people of both countries.